Referendum başa çatdı

□□□□□□□□□□ -□□ □□□□
□□□□□□□□□, 26 □□□□□□□□□□□□ 2016 22:00



Az□rbaycan Respublikasının Konstitusiyasına □lav□ v□ d□yişiklikl□rl□ bağlı keçiril□n ümumxalq s□sverm□si (referendum) başa çatıb.

AzNews.az xəbər verir ki, bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) Seçkilər İnformasiya Mərkəzinin yaydığı məlumatda bildirilir.

Qeyd edək ki, Azərbaycanda ölkə Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsi (referendum) keçirilir. Referendumda səsvermə saat 08:00-da başlayıb, saat 19:00-da isə başa çatıb.

Referendumu izləmək üçün 117 beynəlxalq müşahidəçi Mərkəzi Seçki Komissiyasında akkreditasiyadan keçib. Onlar təxminən 35 ölkənin, Avropa Şurası Parlament Assambleyası da daxil olmaqla, müxtəlif beynəlxalq təşkilatların nümayəndələri, parlamentarilərdir. Ümumilikdə müşahidəçilərin sayı təqribən 53 min nəfərdir.

Seçki məntəqələrində proseslərin bütünlüklə izlənilməsi məqsədilə bütün ölkə coğrafiyasını əhatə edən 119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində (təqribən 20%) veb-kamera

quraşdırılıb.